# Poetik dünyanın sakini



Zakir Məmməd

*(Kəmaləddin Qədimin yaradıcılığı haqqında)*

Kəmaləddin Qədimin yazı üslubunda nitq elementlərinin seçimində, çeşidlənməsində böyük bir sənətkar ustalığı, səliqə-sahmanı vardır.

***"Mən indi bildim ki, olur gor necə,***
***Adamın içinə dolur qor necə...***
***Getmisən, xaraba qalır gör necə,***
***Lap ölüb qalmalı yer idi könlüm".***

Dəlicəsinə bir sevginin varlığından şair dolayı üsullarla söz açır. Bir könlü xaraba qoymağın bədii təfsilatı elə yazılıb ki, adamın gözünün qabağına yerlə yeksan olmuş dünya, şəhərlər, kəndlər canlanır. Məsələn, aşağıdakı şeir bəndlərinin də ilk baxışda "diqqət çəkmədiyini söyləmək olar:

***Olub bal, noğul danışır,***
***Danışır, mağıl, danışır,***
***Gündə bir nağıl danışır***
***Elə dilim ürəyimə.***

Deklarativ mətn təsiri bağışlayan bu şeir parçasının üstündən sanki sükut edib keçmək də olar. "Yol tapmaq", "ürəyə girmək", "nağıl danışmaq" gündə on dəfə hamının söylədiyi, eşitdiyi ibarələrdir. Fəqət fəhm etdikdə ayrı bir mənzərəni kəşf etmiş olursan. Buradakı ürək söhbəti, məntiqi ardıcıllıqla irəliləyib tənqidi təfəkkürə doğru çoxlu keçidlər axtarıb tapmağın "əziyyətləri"nə qatlaşmaq oxucunu məmnun etməlidir.

Zənnimcə, daha yaxşı yazmaq, yeni poetik kəşflər etmək qayğıları bu misralarda əksini tapmışdır. Ayrı bir nümunəyə baxaq:

***Necəyik, yetəndən sor bizi, necə***
***Necə götürəcək gor bizi, necə?***
***Gör necə öldürdü, gör bizi, necə***
***Sənin yalanınla, mənim gerçəyim!***

Ayrılıqdan hamı yazır. K. Qədimin "ayrılığında" mənfəət çoxdur, bəxtəvərlik əmsalı ən yüksək səviyyədədir. "Alsın canın ayrılıqlar, İçsin qanın ayrılıqlar, Dörd bir yanın ayrılıqlar, Ölən, bəxtəvər başına..." Ayrılıqdan bu cür yazan ikinci bir şairimiz yoxdur

K.Qədim sevgi hislərini də poeziyanın tələbləri səviyyəsində bəyan etməkdə geniş təcrübəsi olan şairdir. Həyatda sevgi giley-güzarları çoxdur. Bu aləmdə baş verənlərin qələmə alınması və eşq ədəbərkanının öyrənilməsi sahəsində poeziya özünün cürbəcür məktəblərini, üslub və cərəyanlarını yaradıbdır. Hansı ədəbi üslubun nümayəndəsi olmağından asılı olmayaraq, hər şairin öz dəst-xətti, yazı texnikası, fərqli istedadı rol oynayır. Kəmaləddin bəyin məhəbbət aləmində baş verənlərə iki cür, ya tam ciddi planda, ya da ironik yanaşdığını müşahidə edirik. Məsələn, onun "gəl apar, məndə qalmısan, özünü axtaran qadın" şəklində yazması çağdaş cəmiyyətdə sevgi iztirabları əvəzinə, sevgi qalmaqallarının geniş yer aldığına işarədir.

Bu dünyada sakin olmağın Allahdan uzaq düşmək, hətta şair olaraq onu layiqincə vəsf edə bilməmək əziyyəti olduğu kimi, dünyanı tərk etməyin də allaha qovuşa bilməmək narahatlığı vardır. Bir sözlə, həm bu, həm o biri dünyanın yolu sevgidən keçir.



Fikir lakonikdir, misralar maksimum yüklənib. Amma həmin lakonizm şeirdə obrazın bir əlamətinə çevrilir. Eşq əhlinin öz başına gələnlərin bundan da yığcam təsvirini vermək çətindir. Kəmaləddin Qədimin şeirində emosionallıq, poetik ritm kənardan deyil, daxili enerji ilə aktivləşir və hər hansı cisim öz təbii xassələrini qoruyub saxladığı kimi, onun yaratdığı nitq konstruksiyalarının da davamlılığı, etibarlılığı şübhə doğurmur.

***Ruhum, tez darıxıb getdin,***
***Könlüm evin yıxıb getdin.***
***Sən yerlərdən çıxıb getdin,***
***Mən göylərdən enib qaldım.***

Mənzərə göz qabağındadır. Burada ayrı-ayrı estetik yazı sisteminə mənsub şairləri müqayisə etmək məqsədi güdülmür. Sadəcə, dünyaya metafizik baxışın təzahürü kimi araya gələn bu mülahizələrə nəzər yetirəndə bəlli olur ki, poeziya da, irfan da Kəmaləddin Qədimin bu şeirində daha mükəmməldir. Şair ruhunnu göstərmək üçün onun konkret sərhədlərini, daha doğrusu sərhədsiz bir ucalığa sarı hərəkət etdiyini təsvir edir.

***Bir şey ki yer, göy qatı da sevgidi,***
***Həyatı da, siratı da sevgidi.***
***Darıxmağın bir adı da sevgidi,***
***Durum gedim darıxmağın dalınca...***

Bax bu darıxmağın adı da sevgidi. Bir sevgi yağmurunda romantik duyğular yaşayaraq, ya da ağlında, könlündə dopdolu bir eşq ilə böyük SONuna tələsən, darıxan əbədiyyət yolçusunun sözünü və ruhunu nurlandıran haqq çırağı var.

***Eşq ilə doludu içim, dopdolu,***
***Tanrıdan verilib butam, azalmaz.***
***Qərib yolçusuyam bir bitməz yolun,***
***Elə, hey gedərəm, atam, azalmaz...***

Çağdaş oxucunu ən çox məşğul edən mövzulara həssas olmağı Kəmaləddin bəyə rəğbət qazandıran cəhətlərdəndir. Onun poeziyasında ağıl və emosiya, müdriklik və duyğusallıq eyni dərəcədə nəzərə çarpır.

Sonda yaradıcılığında müşahidə olunan bir reallığın müəllifə xatırladılması, məncə, yerinə düşər. Bütün yazarlarda olduğu kimi, Kəmaləddin bəyin üslubunda da təkrarçılıq, bəzən mətnin qurulmasında ciddi prinsipiallıq əvəzinə, üstündən keçmə, sənətin tələblərindən geri çəkilmə  məqamlarını da qeyd etməyi əhəmiyyətli hesab edirəm.

Kaspi.-2017.-15-17 aprel.